# Sabahın alimi



# AĞILLI AYAQQABILARIN SİRRİ

## Layihələri qızıl medal qazanan məktəblilər danışdılar

**Lənkəran rayonu Boladi kənd Nahir Axundov adına 1 nömrəli tam orta ümumtəhsil məktəbinin "Əsgəri xəbərdarlıq etməklə minadan qoruyan smart ayaqqabı" adlı layihəsi "Sabahın alimləri" XV Respublika layihə müsabiqəsində qızıl medal qazanıb.**






"Azərbaycan müəllimi" xəbər verir ki, müsabiqənin milli final mərhələsində təqdim olunan layihələr arasında məktəbin komandasının işi elə ilk gündən mütəxəssis alimlərin və hərbi sənaye üzrə ixtisaslaşmış ekspertlərin xüsusi marağına səbəb olub.

Layihənin elmi rəhbəri məktəbin fizika müəllimi və direktoru Seyran Əliyev, komandanın üzvləri isə X sinif şagirdi Talib Cabbarov və IX sinif şagirdi Elay Mikayıllıdır. Komanda üzvləri layihəni təqdim edərkən müharibədən sonra mina partlayışlarının yaratdığı təhlükəli nəticələrə diqqət çəkiblər. Elay Mikayıllı bildirib ki, mina problemi bu gün də aktual olaraq qalır:

"Vətən müharibəsindən sonra çox sayda mülki vətəndaş mina partlayışına məruz qalıb. Onlardan həlak olanlar və müxtəlif dərəcəli xəsarətlər alanlar var".

Digər iştirakçı Talib Cabbarov isə layihənin texniki xüsusiyyətləri barədə məlumat verib. Onun sözlərinə görə, hazırlanan sistem əsgərlərin fərdi təhlükəsizliyini artırmaq məqsədilə ayaqqabının alt hissəsinə yerləşdirilən xüsusi mina detektoru prototipi üzərində qurulub:

"Layihənin sxemini hazırladıq, lazımi detalları kiçik ana lövhəyə yığaraq cihazı ayaqqabının alt hissəsinə yerləşdirdik. Minalanmış ərazidə hərəkət zamanı ayaqqabı torpağa tam təmas etməzdən əvvəl sistem metal mina ehtimalını müəyyən edərək istifadəçiyə səs, vibrasiya və ya işıq siqnalı vasitəsilə xəbərdarlıq edir. Bundan əlavə, piezo element vasitəsilə addım zamanı yaranan enerji elektrik enerjisinə çevrilərək batareyaları doldurur və cihazın fasiləsiz işləməsinə imkan yaradır. Məqsədimiz əsgərin hər addımının təhlükəsiz olmasına töhfə verməkdir".

**Qeyd edək ki, Lənkəran rayonu Boladi kəndi Nahir Axundov adına 1 nömrəli tam orta ümumtəhsil məktəbi artıq beşinci dəfədir ki, "Sabahın alimləri" müsabiqəsinin finalında iştirak edib. Məktəbin komandası bundan əvvəl də beynəlxalq səviyyədə uğur əldə edib. Belə ki, gənc tədqiqatçılar SAF 2025 Beynəlxalq STEAM Festivalında fərqli layihə ilə çıxış edərək III yerə layiq görülüb və bürünc medal qazanıblar.**

**Nilufər HACILI,**
**Lənkəran-Astara üzrə regional təmsilçi**